# HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK TƏLİMİ

## Akademik İsa Həbibbəylinin tədqiqatlarında



*Salatın ƏHMƏDLİ,*
*dosent*

*(Əvvəli ötən saylarımızda)*

**ÜÇÜNCÜ ÇIXIŞ:**
«Hörmətli millət vəkilləri! Mən ikinci dəfə (halbuki bu üçüncü çıxışdır - İ.H.) çıxış edirəm. Xahiş edirəm məni düzgün başa düşəsiniz. Və bilin ki, bu mənim tərəfimdən tamamilə qətiyyətlə deyilən sözdür. Mən necə bir azərbaycanlı kimi, necə bir Naxçıvan əhli kimi çiynimə avtomat salıb, bax, bu dağlarda gedib, Naxçıvan torpağını qorumağa hazıram. Naxçıvan Ali Məclisinin hər bir tapşırığın yerinə yetirməyə hazıram. Azərbaycan xalqının yolunda, onun azadlığı yolunda, Naxçıvanın gələcək inkişafı yolunda canımı qurban verməyə hazıram. Ancaq mən vəzifə tutmaq istəmirəm. Xahiş edirəm, bunu düzgün başa düşəsiniz. Mənim üzərimə başqa nə vəzifə, tapşırıq verəcəksinizsə, mən hamısına hazıram. Yenə də deyirəm, mən buradan çıxıb, avtomatı çiynimə salıb, gedib dağlarda Naxçıvanı qorumağa hazıram. Buna təcrübəm də var, hələ ki, gücüm də var. Ancaq xahiş edirəm ki, bu sözlərimi səmimi söz kimi qəbul edəsiniz, məni başa düşəsiniz və xahiş edirəm ki, bu məsələni müzakirə etməyəsiniz».

Nəhayət, Heydər Əliyev dördüncü dəfə rəsmi olaraq kürsüdən bəyan edir: «Mən Sizin hamınıza minnətdaram. Və bir daha xahiş edirəm, fikirləşin, tarixi məsələdir, fikirləşin, fikirləşin, bir də tənəffüs edin, fikirləşin, bir də götürqoy eləyin. Mən xahiş edirəm, mənim xahişimi siz ödəyəsiniz. Mən xahiş edirəm, mən xahiş edirəm, məni düzgün başa düşün. Mən sizin hamınıza minnətdaram, çox böyük ehtiram göstərirəm. Məni bağışlayın. Ancaq bir də xahiş edirəm...»

**İCLAS ZALINDAN SƏS:** «Yetmiş nəfər deputata qarşı çıxış edirsiniz».

"Qeyd olunan çıxışlar Heydər Əliyevin Azərbaycan idealını, vətənpərvərliyini, xalqa və torpağa sədaqətini bütün aydınlığı ilə nümayiş etdirir. Bu tarixi çıxış bir daha göstərir ki, Heydər Əliyevin milli dövlətçilik idealları onun üçün hər hansı rəsmi dövlət vəzifəsi tutmaqdan qat-qat üstün olmuşdur. Beləliklə, xalqın və Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının təkidi ilə Heydər Əliyev ölkə və region üçün fövqəladə şəraitdə və fövqəladə olaraq çağırılması zəruri sayılmış sessiyada bu ali dövlət qurumunun rəhbəri seçilməsinə razılıq verməli olmuşdu".

Bu sessiyanın Naxçıvan Muxtar Respublika Ali Məclisinin bütün tarixi ərzində keçirilmiş "ən uzunmüddətli sessiya"da (Belə ki, Naxçıvan şəhərində 03 sentyabr 1991-ci il tarixində, öz işinə başlayan sessiyanın iclasları 4 sentyabr, 5-6 və 7 sentyabrda 5 gün ərzində davam etdirilmişdir), "ölkə səviyyəsində və region üçün əhəmiyyətli olan məsələlər geniş müzakirə edilərək müvafiq qərarlar" qəbul edildiyini bildirən İsa Həbibbəyli bunları "Azərbaycanda tarixi gedişatın axarının, istiqamətinin dəyişdirilməsinə, müstəqil dövlətçiliyin bərqərar olmasına xidmət edən tarixi qərarlar" kimi yüksək qiymətləndirir: "Bu qərarların mətninin sonunda görkəmli dövlət xadimi, böyük şəxsiyyət Heydər Əliyevin imzasının olması sadəcə həmin tarixi günün faktı olaraq qalmır. Heç şübhəsiz, əgər Heydər Əliyev xalqın təkidi və tələbi ilə 03 sentyabr 1991-ci ildə Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməsəydi, Azərbaycanda dövlət müstəqilliyi uğrunda gedən proseslərin məcrası, kim bilir, hansı səmtə yönəldiləcək, necə böyük və qanlı labirintlərdən keçməli olacaqdı. Bu - xalqın böyük arzusu və tələbi ilə dünya miqyaslı siyasətçi Heydər Əliyevin böyük siyasətə yenidən qayıdışının həlledici mərhələsi idi. Bu-Azərbaycanda tarixi gedişatın əsaslı dönüş məqamı idi".

Naxçıvan MR Ali Məclisinin Sədri vəzifəsinə seçilməmişdən 46 gün əvvəl, yəni 19 iyul 1991-ci ildə rəsmi müraciəti əsasında Sovet İttifaqı Kommunist Partiyasının sıralarından çıxan, tariximizdə ilk dəfə olaraq "bitərəf, partiyasız, müstəqil deputat kimi ali hakimiyyət orqanının rəhbəri vəzifəsinə" seçilən, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin timsalında Azərbaycanın o vaxta qədərki tarixində ilk dəfə olaraq, üzərində Kommunist Partiyasının nəzarəti olmayan ali dövlət qurumunun fəaliyyətə başlamasında böyük rolu olan, böyük siyasi hadisələrə imza atan (Sovet ordusu hissələrinin dinc yolla Muxtar Respublikanın ərazisindən çıxarılması, Dünya azərbaycanlılarının Həmrəylik Gününün dövlət səviyyəsində qeyd edilməsi, Türkiyə Cümhuriyyətinə və İran İslam Respublikasına tarixi səfərləri, Azərbaycanda ilk dəfə olaraq sosialist təsərrüfat sisteminin ləğv edilməsi, torpaq islahatları və özəlləşdirmə tədbirləri, Azərbaycanla Türkiyə Cümhuriyyətini əlaqələndirən Sədərək-Dilucu-"Ümid körpüsü"nün 28 may 1992-ci ildə istifadəyə verilməsi) qərarları yüksək dəyərləndirir.

Gəldiyi qənaət budur ki, "bir sözlə, görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə 1991-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanda müstəqil dövlətçiliyin böyük məktəbinə çevrilmişdir. Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti vəzifəsində fəaliyyət göstərdiyi tarixi mahiyyət daşıyan mərhələ (1993-2003) ölkəmizdə müstəqil dövlətçiliyin yaradılması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi dövrüdür. Bu, çətin, mürəkkəb, məsuliyyətli və tarixi epoxada müstəqil Azərbaycan dövlətinin böyük qurucusu olmuş Heydər Əliyev özünün adı və yorulmaz mübarizəsi ilə bağlı olan yeni bir epoxa yaratmışdır. Heydər Əliyev epoxası - Azərbaycanın xilası və inkişafı dövrünün epoxasıdır. Heydər Əliyev epoxası - Azərbaycanda müstəqil dövlətçiliyin böyük təməllərinin, möhkəm əsaslarının yaradıldığı epoxadır. Dünya birliyində Azərbaycan ölkəsinin layiq olduğu şərəfli yerin qazanılması da Heydər Əliyev təliminin bəhrəsidir".

Heydər Əliyev yolunu davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizdə "Heydər Əliyev milli dövlətçilik təliminin dönməzliyini, davamlılığını, yaradıcı şəkildə inkişaf etdirilməsini təmin etməklə xalqımızın və dövlətimizin tarixində yeni bir epoxa yaratmağa nail olmuşdur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin yeni tarixi epoxasının Heydər Əliyevidir. Möhkəm dövlətçilik, üstəgəl geniş- miqyaslı quruculuq, müasirləşdirmə və modernləşdirmə, üstəgəl tarazlaşdırılmış siyasət və analitik təhlil bərabərdir İlham Əliyev deməkdir mümkündür. Yenidən qurulmuş və modern inkişaf səviyyəsinə çatdırılmış müasir Azərbaycan tam mənası ilə Prezident İlham Əliyevin möhtəşəm əsəridir".

* * *

Ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan miqyasındakı böyük xilaskarlıq missiyasının Naxçıvandan başladığını bildirən İsa Həbibbəyli onun böyük dövlətçilik konsepsiyasının həyata keçirilməsi Naxçıvan Muxtar Respublikasında bütün sahələrdə inkişafdan yeniləşməyə və intibaha doğru hərəkatın başlıca hərəkətverici qüvvəsini təşkil etdi", - deyir. Bu sahədə Naxçıvan Muxtar Respublikasının sədri Vasif Talıbovun fəaliyyətini yüksək dəyərləndirir.

Onun Muxtar Respublikanın paytaxtı Naxçıvan şəhərinin əsaslı surətdə yenidən qurulmasında, qədim tarixə malik olan Naxçıvan şəhərinin əsas memarlıq üslubu saxlanılmaqla yanaşı, şəhərdə düşünülmüş şəkildə böyük yeniləşdirilmə proqramı həyata keçirildiyini, hazırkı Naxçıvanın Şərq memarlığı zəminində ucaldılmış Avropa şəhəri olduğunu yazır: "Minilliklər ərzində qurulub tikilmiş Naxçıvan şəhərinin inkişafının Vasif Talıbov dövrü tarixlərdə izləri qalmış intibahın müasir mərhələdə böyük masştabda tamamilə yeni səviyyəyə qaldırılması hadisəsidir. Bu, Naxçıvan şəhərinin keçdiyi çoxəsrlik inkişaf yolunda yeni tarixi epoxadır. Naxçıvan şəhəri indi Nuh əyyamından, Atabəylər dövlətindən XXI əsrə qədər keçdiyi çoxəsrlik yolda ən uca inkişaf zirvəsinə gəlib çatmışdır. Şəhərsalmada xüsusi diqqət yetirilən kərpic və şəbəkə elementləri burada Şərq memarlıq ənənələrini, şüşə və metal konstruksiyalardan istifadə isə Qərb inşaat texnologiyalarını üzvi vəhdətdə yaşatmağa xidmət edir. Müasir Naxçıvan Şərq mühitinin özünəməxsus aurasını və qərbyönlü inkişafın əsas meyllərini cəm halda təcəssüm etdirir. Naxçıvan şəhərində əsaslı şəkildə bərpa edilmiş XIX əsrə məxsus Came məscidi, görkəmli şair-dramaturq Hüseyn Cavidin şəbəkə ilə işlənmiş türbəsi, yerli travertin materialı ilə üzlənmiş binalar, Zaviyə-mədrəsə kompleksi qədimlik ənənəsinin örnəkləridir. Eyni zamanda, Muxtar Respublikanın Baş kəndindəki Gənclik mərkəzi, Azərbaycan Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikası İdarəsinin, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, Ali Məhkəmənin çoxmərtəbəli binaları, Naxçıvan Dövlət Universitetinin Elektron kitabxanası, konservatoriyası, Diaqnostika-müalicə mərkəzi, Məhəmmədağa Şahtaxtlı adına Naxçıvan kitab evi Şərq şəhərindəki Qərb inşaat abidələridir".

Naxçıvanda yenidən qurulmuş Təbriz mehmanxanası, yeni tikilmiş Duzdağ otelini Avropadakı ən yaxşı beşulduzlu otellərlə müqayisə edir, Heydər Əliyev sarayını "yeni dövr Azərbaycan memarlığının şah əsərlərindən biri" kimi yüksək qiymətləndirir. Bu möhtəşəm sarayın inşa- atında və interyerindəki Şərq və Qərb üslubunun üzvi sintezi milli memarlıq ənənələrinin yeni çalarlarla zənginləşdirilməsinə şərait yaratmışdır. Naxçıvan Dövlət Universitetinin Beynəlxalq Münasibətlər və Xarici dillər fakültəsinin beşmərtəbəli korpusunda, tələbə sosial xidmət mərkəzində də eyni harmoniya qorunub saxlanılmışdır. Bütün bunların sayəsində qədim Naxçıvanın zəminində yeni bir şəhər - müasir Naxçıvan ucaldılmışdır. Müasir Naxçıvan isə yeni tipli Avrasiya şəhərinə çevrilmişdir.Yeniləşən müasir Naxçıvan yeni çağ Avrasiya şəhərsalma mədəniyyətinin parlaq təcəssümüdür, bu mədəniyyətin inkişafının təzə mərhələsidir".

Naxçıvanın bölgələrində - Şərur, Babək, Culfa, Ordubad, Şahbuz, Kəngərli və Sədərəkdə aparılan quruculuq işlərində qədim mədəni ənənələrin saxlanması, "şəhərsalma və quruculuq prosesində qədim və zəngin ənənələrə malik olan Ordubadda Şərq ənənələri, yeni salınan Kəngərlidə Qərb elementləri, Araz kənarında yerləşən Culfada Şərq-Qərb ünsürləri" üstünlük təşkil etdiyi bildirilir: "Məsafə etibarilə Muxtar Respublikanın mərkəzindən xeyli aralıda yerləşən rayon mərkəzləri sanki Naxçıvan şəhərinin hər birinin özünəməxsus görkəmi olan mikrorayonları təsiri bağışlayır. Araz kənarında salınmış Heydərabad müstəqil Azərbaycanın xəritəsinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adı ilə bağlı daxil olan tarixi əlavədir. Bu, böyük öndər Heydər Əliyevin quruculuq və abadlıq siyasətinin Vasif Talıbovun baxışları və təsəvvürlərinin, yaradıcı yanaşmasının əsasında ucaldılmış abidəsidir.

Beləliklə, Naxçıvan Muxtar Respublikasında şəhərsalma fərqliliklərin və bənzərliklərin vəhdətindən ibarət olan vahid bir tam, sistemli bir bütöv təəssürat yaradır. Bu isə regionda şəhərsalmada və memarlıqda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin rəhbəri səviyyəsində aparılan dövlət siyasətinin uğurlu bəhrəsidir".

Naxçıvanın qədimliyi, milli-tarixi ənənələri, buradakı minilliklərdən xəbər verən Azərbaycan toponimləri, arxeoloji abidələr, əsatiri yerlər, qayaüstü rəsmlər əsaslı şəkildə tədqiq edildiyi, proseslərə Naxçıvan Muxtar Dövlətinin başçısı Vasif Talıbovun rəhbərlik etməsini, böyük dəstək verməsini "tarixi-mədəni araşdırmaların, elmi fəaliyyətinin dövlətçilik işinin üzvi tərkib hissəsinə çevrilməsi ilə" nəticələnməsini, Ali Məclis Sədrinin məşhur «Əshabi-Kəhf» ziyarətgahının bərpası və qorunması tədbirləri haqqında» 1998-ci il 09 fevral tarixli, «Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında» 2001-ci il 26 aprel tarixli, «Nuh peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü türbəsinin bərpa edilməsi haqqında» 2006-cı il 28 iyun tarixli sərəncamlarını, qədim Xanəgah şəhərinin üzə çıxarılması, Köhnə qala divarlarının bərkidilməsi sahəsindəki təşəbbüslər"i geniş dünyagörüşlü, uzaqgörən dövlət xadiminin böyük gələcəyə hesablanmış baxışlarının ifadəsi kimi təqdir edir.

***(Davamı var)***